**24.12.2021: xəbər**

## Event dedicated to the success of Khazar University in 2020-2021

On December 23, 2021, an event dedicated to  success gained in 2020-2021 was held in the Marble Hall of Khazar University. The event was attended by university administration, staff and students.

Opening the event, Rector of the university, Associate Professor Irada Khalilova, gave an overview of the achievements of the last two years, both in the educational environment of the country and in the field of international relations. She noted that the university continues to advance in international rankings, actively participates in various projects and grant competitions, and its reputation is growing. The rector emphasized that university students have succeeded in various projects and competitions.

Then reports on different areas were heard. Dean of the School of Economics and Management, Dr. Jeyhun Mammadov, spoke in detail about the EDUNIVERSAL Ranking, noting that according to the organization's latest rankings, Khazar University's School of Economics and Management ranks first among Azerbaijani business schools.

Lyudmila Sotova, Director of the Quality Assurance Canter, pointed out Khazar University's progress in recent years in the rankings of prestigious organizations, noting that Khazar University once again ranked first among Azerbaijani universities in the QS Rating Agency's new "Emerging Eastern Europe and Central Asia" rankings.

Raziya Isayeva, Director of the Development Office, made a report on Khazar University's participation in local and international projects. She gave detailed information about participation in ERASMUS+, CREATIVE SPARK, MEDIATS and other international projects.

In his speech, Professor Hamlet Isaxanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, praised the successes, noting that the university's potential allows it to increase its achievements and build new relationships. He set new tasks and made recommendations in the areas under

discussion. At the end, students who successfully represented Khazar University in local and international projects were awarded  certificates.




















**2020-2021-ci illər ərzində Xəzər Universitetinin uğurlarına həsr olunmuş tədbir**

2021-ci il dekabrın 23-də Xəzər Universitetinin Mərmər zalında 2020-2021-ci illərin uğurlarına həsr olunmuş tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşları və tələbələr iştirak edirdilər.

Tədbiri universitetin rektoru dosent İradə Xəlilova açaraq, son iki il ərzində həm ölkənin təhsil-təlim mühitində, həm də beynəlxalq əlaqələr sahəsində qazanılmış nailiyyətlər haqqında ümumi məlumat verdi. Qeyd etdi ki, beynəlxalq reytinq cədvəllərində universitet irəliləməkdə davam edir, müxtəlif layihə və qrant müsabiqələrində fəallıq göstərir, universitetin nüfuzu getdikcə artır. Rektor universitet tələbələrinin müxtəlif layihə və yarışmalarda uğurlar qazandığını xüsusi vurğuladı.

Sonra sahələr üzrə hesabatlar dinlənildi. İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov EDUNIVERSAL Ranking reytinqi haqqında ətraflı məlumat verərək, təşkilatın son reytinq cədvəlinə görə Xəzər Universitetinin İqtisadiyyat və Menecment Fakültəsinin Azərbaycanın biznes məktəbləri arasında 1-ci yeri tutduğunu qeyd etdi.

Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova nüfuzlu təşkilatların reytinq cədvəllərində Xəzər Universitetinin son illərdəki irəliləyişini qeyd edərək, QS Reytinq Agentliyinin "İnkişaf etməkdə olan Şərqi Avropa və Mərkəzi Asiya" regionu üzrə yeni reytinq cədvəlində Xəzər Universitetinin yenə Azərbaycan universitetləri arasında 1-ci yerə çıxdığını nəzərə çatdırdı.

Xəzər Universitetinin yerli və beynəlxalq layihələrdə iştirakı haqqında İnkişaf Ofisinin direktoru Raziyə İsayeva hesabatla çıxış etdi. O, ERASMUS+, CREATİVE SPARK, MEDİATS və digər beynəlxalq layihələrdə iştirak haqqında geniş məlumat verdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxışında əldə edilmiş uğurları təqdir etməklə yanaşı, qeyd etdi ki, universitetin potensialı nailiyyətləri artırmağa imkan verdiyinə görə işlərin genişləndirilməsi və yeni əlaqələrin yaradılması zəruridir. O, müzakirə olunan sahələr üzrə yeni vəzifələr qarşıya qoydu, tövsiyələr verdi.

Sonda Xəzər Universitetini yerli və beynəlxalq layihələrdə müvəffəqiyyətlə təmsil edən tələbələrə sertifikat təqdim olundu.